# Məhəmməd Əmin yadigarı...

**Bu yazını Azərbaycanın əməkdar rəssamı Rais Azər oğlu Rəsulzadənin anadan olmasının 75 illiyinə həsr edirəm**



Fəzail İsmayıl Böyükkişi

***XXI əsrin 2021-ci ilində noyabr ayının1-də xalqımızın sevimli oğlu Rais bəyin 75 yaşı tamam olur. Bu mübarək gündə bir qələm sahibi, məslək dostu kimi Rais Azər oğlu barəsində könlümdən keçənləri qələmə almaq istədim. Odur ki, körpə uşaqdan da kövrək olan şair qəlbimə azadlıq verdim. Noyabr ayının 1-i yaxınlaşdıqca siması al günəş nurlu olan Rais bəyə həsr etdiyim səhifələrin sayı artdıqca yazdıqlarımı dönə-dönə rəndələyib zərdələyəndən sonra başa düşdüm ki, Rais bəyin 75 illik təbəddülatlı mübariz və kamil ömrünü bir neçə qəzet səhifəsində dərc olunan məqalələrə sığışdırmaq mümkün deyil. Anladım ki, babası Əmin bəy kimi Vətən fədaisi, millət aşiqi olan Rais bəyin məşəqqətlərlə, iztirablarla, sıxıntılarla keçən dözümlü, səbirli, təvazökar, yaradıcı ömrü neçə-neçə yenilməzliyi, qəhrəmanlığı tərənnüm edən dastanların mövzusudur.***

Azərbaycan xalqı azadlıq mübarizəsinə başladığı gündən mən də bu mübarizədə fəal iştirak etdiyimdən Rais Azər oğlu Rəsulzadəni "Meydan" hərəkatı başladığı günlərdən tanıyırdım. Bilirdim ki, Məhəmməd Əmin Rəsulzadənin nəvəsidir. O şəxsin ki, bütün şüurlu ömrünü Azərbaycanın azad, demokratik, qüdrətli dövlət olmasına həsr edib. O şəxsin ki, bu məqsədlə əlinə qələm aldığı gündən Azərbaycan Demokratik Cümhuriyyətinin elan olundu. 1918-ci ilin 28 may ayına qədər Azərbaycan Cümhuriyyətinin mövcud olduğu müddətdə də Azərbaycan Cümhuriyyəti süquta uğrayandan son nəfəsinə qədər o bu amal uğrunda qələmiylə mücadilə edib. O şəxsin ki, onun çəkdiyi məşəqqətləri ailəsi, övladları, nəvələri və digər qohumları da çəkmişlər.

Rais bəy 1946-cı ilin noyabr ayının birində Qazaxstanın Taldı-Kurqan bölgəsində sürgün ömrü yaşayan Azər bəyin ailəsində dünyaya gəlib. Azər bəy Əmin bəyin son beşik övladı olub. Bakıda rəssamlıq məktəbində oxuyub. 1937-ci ilin noyabrından Qazaxıstanda sürgün ömrü yaşayıb. O Qazaxıstanda sürgün ömrü yaşayarkən Şölə xanımla ailə həyatı qurub. Şölə xanım Rəhim ağanın böyük qızı və Məşədi Böyük ağanın nəvəsi olduğu üçün onu anası Humay xanımla (Paşa xanın qızı) bacıları Həvva xanımı və Maral xanımla birlikdə Qazaxıstanın Taldı-Kurqan bölgəsinə sürgün etmişdilər. Azər bəy həm Humay xanımgilə qonşu idi, həm də onun böyük qızı Şölə xanıma dərs deyirdi. Azər bəylə Şölə xanım bir-birlərini ülvi məhəbbətlə sevdikləri üçün onlar 1941-ci ildə ailə həyatı qurdular. 1942-ci ildə onların ilk övladları Ramiz bəy dünyaya gəldi.

***1941-ci ildə müharibə başlayanda Azər onu cəbhəyə göndərməyi məsləhət bilmədilər. Çin sərhəddində yerləşən Tekeli şəhərində əmək batalyonuna ağır işə cəlb edərək, ağır metallar mədənində qurğuşun istehsal etməyə məcbur etdilər və birdən-birə onu hərbi komissarlığa dəvət etdilər, ona hərbi paltar və müəyyən qədər yol xərcliyi verərək onu Güney Azərbaycanın Məşhəd şəhərinə hərbi qulluğa göndərilir. O hərbi qulluqda olan əsgər qarşısında həm özfəaliyyət dərnəyin üzvü kimi həm tar çalır, həm də yeni çəkdiyi rəsm əsərlərini nümayiş etdirir. O, günlərin bir günündə Məşhəd şəhərində vaxtilə Məşhədə sürgün edilən qonşularından birini görür. Həmin adam dərhal Azəri tanıyır və Azərə deyir tarını da götürüb axşam bizə qonaq gəl. O qonaqlıqda Azəri bir kənara çəkərək ona belə təklif edir...*** Hərgah istəyirsənsə səni atan Məhəmməd Əmin bəylə görüşdürüm. Azər bəy dərhal başa düşür ki, bu xoşagələn təklif deyil. Təbii onun birdən-birə əmək batalyonun ağır kateqoriyasından ayırıb ön cəbhəyə göndərməkdə məqsəd məkrli məqsəddir, doğrusu Sovet xəfiyyəsinin qurduğu tələdir. Onlar bu tələ ilə Azər bəy ilə Əmin bəyi tutub onların ömrünə son qoymaq istəyirlər. 1946-cı ildə Azər bəyin ikinci övladı Rais bəy dünyaya gəlir. Tanrının bu töhvəsinə Azər bəy də, Şölə xanım da, Humay xanım da və onların digər qohumları da çox sevinir. Lakin bu xoşbəxtlik çox çəkmir. Azər bəy 3 yaşında ikən anası Şölə ağır xəstələnərək 24 yaşında vəfat edir. Rais bəylə böyük qardaşı Ramiz bəyə nənələri Humay xanım baxır. Rais bəy orta məktəbdə əla qiymətlərlə oxuyur. O 7-ci sinifdə oxuyarkən Sovet dövlətinin başçısı olan Xuruşov Qazaxıstanda sürgündə olanların öz doğma Vətəninə qayıtmağı barəsində əhv fərmanı verir. Bu vaxt Rais bəylə qardaşı Ramiz bəy Humay nənəsi və xalaları ilə birlikdə Naxçıvan şəhərinə gəlirlər. Rais bəy 7-8-cu sinifləri Naxşıvanda oxudu. Onu da, qardaşı Ramiz bəyi də istəkli Humay nənəsi, xalaları bircə anda gözlərindən uzağa qoymaq istəmirdilər. Rais bəy dərslərini əla oxuyurdu, asudə vaxtlarını idmanla, rəsm əsərləri çəkməklə, şahmat oynamaqla dostlarıyla Naxçıvanın səfalı yerlərini gəzməklə keçirirdi. Rais bəy həm də ana nəslindən olan Naxçıvan ağsaqqalları Mədət ağanın ana babası Rəhim ağa və anasının babası Məşədi Böyük ağa haqqında elədiyi söhbətləri dinləməkdən yorulmurdu. Yeri gəlmişkən o vaxt Mədət ağanın Rais bəyə elədiyi söhbətlərdən birinin məzmunu belə idi. Rais bəyin ana babasının Məşədi Böyük ağanın ixtiyarında yeddi kənd olduğundan o həm olduqca var-dövlətli, həm də olduqca insaflı, qeyrətli, mərhəmətli ağa idi. 1918-ci ilin fevral-mart ayları idi. Yenə də ermənilər quduzlaşaraq Bakıda, Şamaxıda, Qubada, Gəncədə, Naxçıvanda, Qarabağda, İrəvanda və Azərbaycanın digər bölgələrində qırğınlar törədirdilər. Bu qanlı-qadalı vaxtda Məşədi Böyük ağanın nökərlərindən bir millətcə erməni olan 15 yaşında bir oğlan uşağıymış. Necə ki, bu qırğınlar səngiməmişdi Məşədi Böyük ağa həmin oğlan uşağını gizlində saxlayır, elə ki, ara sakitləşir. O həmin erməni uşağını ən yaxın adamı vasitəsiylə ata-anasına çatdırır. Bu misalın özü biz Oğuz türklərinin necə alicənab və mərhəmətli olmasını özündə əks etdirən gözəl misaldır. Ermənilər Sumqayıtda qırğın törətdikləri vaxtda biz Oğuz türkləri Məşədi Böyük ağa kimi öz alicənablığından və mərhəmətindən qalmadı. 35 ilə yaxındır ki, erməni faşizmi ilə erməni quduzluğu ilə üzləşsək də biz ermənilərə qarşı öz sözümüzü yalnız döyüş meydanlarında deyirik. Bütöv Azərbaycanın fəxri övladı, fəxri vətəndaşı Rais bəydən söhbət açdığım üçün hamını heyrətə salan bir hadisəni də danışım. Rais bəy qədər xətrini istədiyim bir dostum da var. O ixtisasca cərrahdır. Gənc yaşlarından tibb elmlər doktoru, professordur. Bir dəfə onunla görüşə gedəndə onu çox mükəddər və yorğun gördüm. Doğrusu onu heç vaxt belə görmədiyimdən "noolub?"- deyə soruşdum. O mənə bunları söylədi: "8 ay bundan əvvəl bir ağır xəstəm vardı. Onun üzərində cərrahiyyə əməliyyatı apardım. Heç kimsəsi yox idi. Ona görə də onun zəif və taqətsiz halda tənha qalmasına vicdanım yol vermədi. Evim çox gen olmasa da ona evimdə bir otaq ayırdım. O tam özünə gələndən sonra onu bu gün aparıb aeroportdan Peterburqa yola salmışam. Görən onun səni necə olacaq sualı məni çox narahat edir" deyərək dostim cavab verdi. Çox sağ ol əziz dostum. Millətimizə xas olan böyük savab iş görmüsən. Dostum xəfif-xəfif gülümsəyərək dedi. O qadın erməni idi. Mən onu yola salanda mənə son sözləri bu oldu: "Millətimin tutduğu vəhşiliklərə görə son nəfəsimə qədər onların əvəzinə vicdan əzabı çəkəcəyəm, nə qədər sağamsa ermənilərdən uzaq olacağam. Peterburqda bir müddət qalıb ev-eşiyimi satandan sonra Türkiyəyə köçüb qalan ömrümü orda yaşayacağam". ***1961-ci ildə Azər bəy gözlənilmədən Naxçıvana gəlib bir müddət qalandan sonra Ramizin, Raisin nənəsi Humay xanıma deyir: 'Humay xanım sizə və digər sürgündəkilərə bəraət kağızı versələr də mənə Sovet hökumətinin ixtiyar sahibləri Məhəmməd Əmin oğlu olduğuma görə bəraət kağızı verməyiblər. Doğrudur, mən bir neçə dəfə risk edərək Vətənə gəlmişəm. Amma Azərbaycanda bir neçə gün qaldığıma görə məni şərləyib tuta bilməyiblər. Bilirsən ki, sovet xəfiyyələrinin əli Türkiyəyə çatmadığına görə atamı tutub güllələyə bilmədilər. O ömrünü Türkiyədə sona vurdu, qardaşım Rəsulu da19 yaşında güllələdilər.*** Analığım Maral xanım sürgün əzablarına dözmədi. Anam Umbulbanu xanım oğlu Rəsulun dağına dözmədi, bacım Xalidənin də 1943-cü ildən bəri öldü-qaldısından bir xəbərimiz yoxdu. Oğlum Ramiz də çox kövrək qəlbi həssas və zərif insandır. Qaldı oğlun Raisə. A nənəsi sən ona ana əvəzi olmusan? Anası Şölə xanımı ömrünün qönçə çağında canını oğullarına tapşıranda Ramiz 7, Rais 3 yaşındaydı. Qazaxıstanda Raissiz yaşamaq mənə çətindi. Rais mənim üçün həm cənnət, behişt, Vətənim Azərbaycandı, həm sevimli millətim Oğuz Türkləridir, həm də rəssamlıq sənətimdi. Siz bilirsiniz mənim necə rəssam olmağımı. Amma düzünü deyim ki, mən ürəyim istədiyi kimi rəssam ola bilmədim. Yağlı boyalarla könlümü bulandıran insanların (Leninin, Stalinin və sairənin) rəsmlərini çəkməyə məcbur oldum. Onlara çəkdiyim rəsmlərə verilən pulu da yalnız onların portretlərini çəkmək üçün xərclədim.

Öz ailəmi isə müəllimlik, dülgərlik və sairələrlə halal zəhmətilə dolandırıram Humay xanım rəssamlıq mənim ana nəslimdən mənə fitrətən keçib Umbulbanu xanım da, şairə xalam Umgülsüm xanım da gözəl rəssam olublar. Doğrudur, şeir yazmağı, gözəl rəsm çəkməyi atam Əmin bəy də, qardaşın Rəsul bəy də gözəl bacarıblar. Amma onlar rəsm əsərlərindən zövq almaq üçün rəsm əsərləri çəkiblər. Mən də rəssamlıq məktəbində təhsil alırdım. Bir-birindən gözəl rəsmlər çəkərdin. Bu rəsmlər həm müəllimlərimin, həm də tələbə yoldaşlarım Oqtay Sadıqzadə, dostum Mehdi Hüseynzadənin çox xoşuna gəlirdi. Əfsanəvi qəhrəman olan Mehdi Hüseynzadə də çox qüdrətli rəssam idi. Əfsus ki, onun da müharibə qanadlarını mənim kim kəsdi, ömrü yarımçıq qaldı ona da ürəyincə sənət əsərləri yaratmaq nəsib olmadı. Mən oğlum Rais bəyin fitrətən rəssam olduğunu duyduğumdan ona Günəş nurlu mənasını daşıyan Rais adını vermişəm. Raisin ilk rəsm müəllimi də özüm olmuşam. Amma düşünürəm ki, ona rəssamlıqda hələ öyrətməli olduğu çox elmi sirlər var. Bir də a nənəsi onu deyin ki, rəssamlıq elə incə sənətdir ki, elə dözümlü palıd ağacıdır ki, həm ona sığınıb dolanmaq olar, həm də bu palıd ağacının kölgəsində yayın türyanından, qışın boranından qorunmaq olar. Mənim kimi Raislə yol-yoldaşı olub Vətənə gələndə hiss edirdim ki, onun o çiçəyi çırtlayıb, gözü-könlü gülür, ona dünyanın hər yerindən havası dərmanı, torpağı, canı olan Vətəni şirindir. Mənim kimi o da bütün varlığıyla Azərbaycanı sevir. Düşünürəm ya mən o da bəraət kağızı verilənədək ya Rais hələ heç olmasa üç-dörd il mənimlə bir Karaqandada olsa yaxşıdır. Doğrusu nə qədər dözümlü, yenilməz, cəsur adam olsam da heç vaxt haqq sözümü deməkdən çəkinməsəm, də çörəyimi daşdan çıxarsam da Raissiz orda yaşamaq mənə olduqca çətindir. Hərdən qəlb sirdaşım olan tarı sinəmə basıb "Rast", "Şikəstə", "Segah" və sairələri çalsam da, onu dinləyənlər çox olsa da mənə elə gəlir ki, mənim çalıdığım havaları Raisdən qeyri heç kim tam mənimsəyib, anlayıb, duyub qavraya bilmir". Humay xanım Azəri dinləyib Raisin atası ilə birlikdə Qazaxıstana getməsinə razı olur.



**Bir də a nənəsi onu deyin ki, rəssamlıq elə incə sənətdir ki, elə dözümlü palıd ağacıdır ki, həm ona sığınıb dolanmaq olar, həm də bu palıd ağacının kölgəsində yayın türyanından, qışın boranından qorunmaq olar. Mənim kimi Raislə yol-yoldaşı olub Vətənə gələndə hiss edirdim ki, onun o çiçəyi çırtlayıb, gözü-könlü gülür, ona dünyanın hər yerindən havası dərmanı, torpağı, canı olan Vətəni şirindir. Mənim kimi o da bütün varlığıyla Azərbaycanı sevir. Düşünürəm ya mən o da bəraət kağızı verilənədək ya Rais hələ heç olmasa üç-dörd il mənimlə bir Karaqandada olsa yaxşıdır. Doğrusu nə qədər dözümlü, yenilməz, cəsur adam olsam da heç vaxt haqq sözümü deməkdən çəkinməsəm, də çörəyimi daşdan çıxarsam da Raissiz orda yaşamaq mənə olduqca çətindir. Hərdən qəlb sirdaşım olan tarı sinəmə basıb "Rast", "Şikəstə", "Segah" və sairələri çalsam da, onu dinləyənlər çox olsa da mənə elə gəlir ki, mənim çalıdığım havaları Raisdən fqeyri heç kim tam mənimsəyib, anlayıb, duyub qavraya bilmir". Humay xanım Azəri dinləyib Raisin atası ilə birlikdə Qazaxıstana getməsinə razı olur.**

***Beləliklə 1961-ci ildə Rais bəy atası Azər bəylə Qazaxıstana qayıdır, orta məktəbi orada başa vurur. O, Qazaxıstanda qaldığı bu dörd il ərzində yenə atasından rəsm çəkməyin sirlərini öyrənir. Hərdən rəsm çəkməkdən yorulanda atasıyla şahmat oynayar, atasının tarda çaldığı havaların təşnə-təşnə dinləyər, sonra da Tiyanşan dağına qalxar, onun göz işlədikcə görünən gözəlliklərini heyran-heyran seyr edib, bu gözəlliklər qanına-ruhuna hopdurub ürəyiylə könlünə köçürəndən sonra rəssam fırcasıyla gözəl sənət əsərləri yaradar və bu sənət əsərləri qarşısında gözəllik və insanlıq vurğunu olan bəni-Adəm övladlarına baş əydirib onları dərin-dərin düşüncələri daldırardı. Rais bəy hələ səkkizinci sinifdə oxuyanda Moskvada Krupskaya adına Ümumittifaq Xalq İncəsənət Universitetinin rəngkarlıq fakültəsinə qəbul olunmuşdu, orada məşhur rəssamlar Jukovskayadan, Zakindən, Zokansondan dərs alırdı. İldə iki dəfə çəkdiyi rəsm əsərlərini oraya göndərirdi. Bəzən həmin Universitetə yetmişdən çox əsər göndərirdi. Bu əsərləri diqqətlə nəzərdən keçirən müəlliməsi Jukovskaya ona minnətdarlıq dolu cavab məktubunda yazırdı:***

(davamı var)